MƏHSULUN MƏLUMAT VƏRƏQİ

# SikaWall®-1010 Adhesive

İstilik izolyasiya lövhələri üçün yapışdırıcı

## TƏSVIR

SikaWall®-1010 Adhesive, tək komponentli, polimer ilə təkmilləşdirilmiş, daxili və xarici məkanlarda istilik izolyasiya lövhələrinin yapışdırılması üçün istifadə olunan sement tərkibli yapışdırıcıdır.

## İSTİFADƏ YERLƏRİ

- Daxili və xarici məkanların divar və cəbhələrində
- XPS, EPS, daşyunu lövhələrin yapışdırılmasında
- Sement tərkibli yapışdırıcı olaraq yüngül istilik izolyasiya panellərinin mineral səthlərə yapışdırılmasında

## ÜSTÜNLÜKLƏRİ

- Asan hazırlanma və tətbiq
- Yaxşı yapışma müqaviməti
- Buxar keçirgəndir
- Yapışmış lövhələrin sürüşmə və düşməsini önləyir
- Lövhə və səth arasında lazımlı yapışqanlığı təmin edir

## TƏSDİQLƏR VƏ SERTİFİKATLAR

AZS 039-2000

## MATERIAL MƏLUMATI

| | |
|---|---|
| **Kimyəvi əsası** | Sement, xüsusi əlavə və polimerlər |
| **Qablaşdırma** | 25 kg-lıq Torba |
| **Saxlama Müddəti** | Açılmamış, zədələnməmiş, bağlı qablaşdırmada düzgün saxlandıqda və saxlama şərtlərinə əməl olunduqda istehsal tarixindən etibarən 12 ay. |
| **Saxlama Şərtləri** | Quru şəraitdə, birbaşa günəş işığından qorunan yerdə və +5 °C ilə +25 °C arasında olan temperaturda saxlanılmalıdır. |
| **Görünüş və rəng** | Toz, boz rəngli |
| **Sıxlığı** | Toz : 1,25 kg/lt ± 0,1 kg/lt<br>Təzə qarışım : 1,45 kg/lt ± 0,1 kg/lt |
| **Dartma yapışma gücü** | ≥ 0,5 N/mm$^2$ (Beton səthdə) |
| **Yanğına reaksiya** | Sinif A1 |

# SİSTEM MƏLUMATI

| | | |
|---|---|---|
| **Sistem strukturu** | SikaWall®-1010 Adhesive | Yapışdırıcı |
| | Reinforcement Mesh | Şüşə fiber hörgü |
| | SikaWall®-1030 Render | Suvaq / Hamarlayıcı qat |
| | SikaWall®-45 Deco Primer | Hopdurucu səth astarı |
| | SikaWall®-5000 Mineral Deco DR/DS | Mineral Dekorativ suvaq örtüyü |
| **Sərfiyyat** | 5-6 kg/m² | |
| **Ətraf mühit temperaturu** | min.+5°C / maks.+35°C | |
| **Qarışdırma nisbəti** | 25 kq-lıq torba üçün 6,0-6,25 lt su , Su/Toz nisbəti: 0,24-0,25 | |
| **Səthin temperaturu** | min.+5°C / maks.+35°C | |
| **İstifadə müddəti** | ~90 dəqiqə (20 ± 2°C- də və % 50 nisbi rütubət) | |
| **Açıq gözləmə müddəti** | ~20 dəqiqə (20 ± 2°C -də və % 50 nisbi rütubət) | |

# MƏHSUL MƏLUMATLARININ ƏSASLARI

Bu məlumat vərəqində göstərilən bütün texniki məlumatlar laboratoriya sınaqlarına əsaslanır. Faktiki ölçülmüş məlumatlar nəzarətimizdən kənar vəziyyətlərə görə dəyişə bilər.

# İSTİFADƏ MƏHDUDİYYƏTLƏRİ

- Panellər SikaWall®-1010 Adhesive ilə divara yapışdırıldıqdan sonra onlar dübellərlə mexaniki şəkildə bərkidilməlidir.
- Mexaniki sabitləmə hündür binalarda və küləkli şəraitlərdə daha erkən aparılmalıdır.
- Qarışdırılmış materialın miqdarı istifadə ediləbiləcək miqdara bərabər olmalıdır.
- Sərtləşmiş materialı su ilə qarışdıraraq aktivləşdirməyin.
- Xarici tətbiqlər üçün tətbiq olunan materialı 24 saat günəş işığından, güclü küləkdən və yağışdan qoruyun.
- Həddindən artıq isinmiş səthlərə tətbiq etməyin. İsti şəraitdə tətbiq etməzdən əvvəl səth nəmləndirilməlidir.

# ƏTRAF MÜHİT, SAĞLAMLIQ VƏ TƏHLÜKƏSİZLİK

İstifadəçi, hər hansı məhsuldan istifadə etməzdən əvvəl ən son müvafiq Təhlükəsizlik Məlumat Vərəqi (SDS) ilə tanış olmalıdır. Təhlükəsizlik Məlumat Vərəqi (SDS), fiziki, ekoloji, toksikoloji və digər təhlükəsizliklə bağlı məlumatları təqdim edir, kimyəvi məhsulların təhlükəsiz istifadəsi, saxlanması və utilizasiyası ilə bağlı məlumat və məsləhətlər verir.

## SƏTHİN KEYFİYYƏTİ/ÖN HAZIRLIQ

Tətbiq etməzdən əvvəl səth struktur cəhətdən sağlam, təmiz və toz, kir, pas, yağ, örtük, boş və ya kövrək hissəciklər və digər çirkləndiricilərdən təmiz olmalıdır. Səthin təmiri, dəliklərinin/boşluqların doldurulması və səthin düzəldilməsi Sika® Repair çeşidli materialların uyğun məhsulu ilə aparılmalıdır.
Səth, su ilə əvvəlcədən islatmaqla doymuş və ya uyğun astarla astarlanmalıdır. Yapışdırılacaq istilik izolyasiya lövhəsi quru və təmiz olmalıdır.

## QARIŞDIRMA

Müvafiq bir qarışdırıcı qaba bildirilmiş nisbətdə su tökün. Yavaş-yavaş qarışdıraraq SikaWall®-1010 Adhesive əlavə edin. Həddindən artıq havanın daxil olmasının qarşısını almaq üçün mexaniki olaraq ən azı 3 dəqiqə qarışdırın, yekcins bir məhlul əldə etmək üçün aşağı sürətli elektrikli qarışdırıcıdan istifadə edin. 3 dəqiqəlik idinləndirmə müddəti bitdikdən sonra qarışıq 1-2 dəqiqə daha qarışdırılır və sonra tətbiq olunur.

## TƏTBİQ

Məhsulu № 8 və ya 10 ölçülü dişli mala ilə istilik izolyasiya lövhəsinin arxa səthinə bütünlüklə çəkilməlidir. Əks halda, mala istifadə edərək, lövhənin perimetri boyunca xətti və mərkəzi hissəsində nöqtəli yapışdırıcı çəkməklə tətbiq edə bilərsiniz. Böyük ölçülü istilik izolyasiya plitələri üçün yapışdırıcı səthin bütününə çəkilməli, daha sonra səthə təmas etdirilməli, təzyiq göstərərək sıxılmalı və hizalandığından əmin olunmalıdır.

## AVADANLIQ TƏMİZLİYİ

Alətlərdən və tətbiq avadanlıqlarından təzə material qalıqlarının çıxarılması istifadədən dərhal sonra su ilə həyata keçirilə bilər. Sərtləşmiş / bərkimiş material yalnız mexaniki üsullar ilə çıxarıla bilər.

# YERLİ MƏHDUDİYYƏTLƏR

Qeyd edək ki, xüsusi yerli qaydalar nəticəsində bu məhsul üçün elan edilmiş məlumatlar və tövsiyə olunan istifadələr ölkədən ölkəyə dəyişə bilər. Dəqiq məhsul məlumatları və istifadələri üçün yerli Məhsul Məlumat Vərəqinə müraciət edin.

## HÜQUQİ QEYDLƏR

Bu məlumat vərəqi, xüsusəndə, Sika məhsullarının tətbiqi və son istifadəçi üçün tövsiyyələri, doğru anbarlama, qarışdırma, və standard ətraf mühit şəraitində Sika təlimatlarına uyğun tətbiq olunmaqla əldə edilmiş bilik və təcrübəyə əsaslananan məsləhətlərdir. Praktikada, materiallardakı, səthlərdəki və faktiki sahə şərtlərindəki fərqliliklər səbəbi ilə, bu məlumat vərəqindən, hər hansı yazılı tövsiyələrdən və ya təklif olunan hər hansı digər məsləhətdən xüsusi bir tətbiq üçün uyğunluğu ilə bağlı nə bir zəmanət, nə də hüquqi münasibətdən irəli gələn hər hansı öhdəlik götürülə bilməz. Məhsulun istifadəçisi məhsulun nəzərdə tutulan xüsusi tətbiq və məqsəd üçün uyğunluğunu test etməlidir. Sika öz məhsullarının xüsusiyyətlərini dəyişdirmək hüququnu özündə saxlayır. Üçüncü şəxslərin mülkiyyət hüquqlarına riayət edilməlidir. Bütün sifarişlər mövcud satış və çatdırılma şərtlərimizə uyğun olaraq qəbul edilir. İstifadəçilər, məhsulun yerli Məhsul Məlumat Vərəqinin ən son nüsxəsinə istinad etməlidirlər. Məhsul Məlumat Vərəqini aze.sika.com internet səhifəsindən və ya sorğu əsasında info@az.sika.com poçt adresindən təmin edə bilərlər.

**Sika Azərbaycan MMC**
Sumqayıt Kimya Sənaye Parkı
Kimyaçılar küç.1, AZ5002
Sumqayıt E119
Telefon: +99412 585 10 11
Faks: +99412 585 10 12